**İlham Tumas**

**“Mən ölümdən qorxmuram.
Qoy düşmənlərim başa düşsünlər ki, mən həmişə hara
getdiyimi bilmişəm. Çünki məni Allah qoruyur”.**
**Heydər Əliyev**

**GİZLİ CİNAYƏTLƏR-2**

# PREZİDENTƏ SUİ-QƏSD

*Azərbaycan Respublikası Prokurorluğunun
və Ali Məhkəməsinin arxiv materialları əsasında*

**Layihə rəhbəri: Şahin Sərdarlı**

**2026**
**“Qanun” nəşriyyatı**

**Korrektor:**
Gözəl Heydərova

**Kompyüter yığımı**
Elnarə Hacıyeva
Leyla Sultan

**Qrafik dizayner**
Emil Camalov

**Layihənin rəhbəri Şahin Sərdarlı**

**İlham Tumas. GİZLİ CİNAYƏTLƏR-2. PREZİDENTƏ SUİ-QƏSD**
Bakı, Qanun nəşriyyatı, 2026, 136 səh.

SSRİ Nazirlər Sovetinin Birinci müavini vəzifəsindən uzaqlaşdıqdan, daha doğrusu Mixail Qorbaçovun təzyiqi ilə istefa verdikdən sonra onu bir neçə dəfə xəstəlik adı ilə “sakit ölüm”lə aradan götürmək istəmişdilər. Sonradan Heydər Əliyev Vətəninə qayıtdı. Ancaq Azərbaycana qədəm qoyduğu andan artıq həyatı yenə təhlükədəydi. Onu dəfələrlə həyatdan məhrum etmək istəmişdilər və bu sui-qəsd hallarının hamısı istisnasız olaraq siyasi xarakterli idi. Kitabda Ulu Öndərə qarşı planlanmış terror aktlarından danışılır, ancaq bir sui-qəsd kitabın əsas mövzusudur. Söhbət 1995-ci il iyul ayının 2-də raket və atıcı qurğudan istifadə etməklə xarici səfərdən qayıdan Azərbaycan Prezidenti Heydər Əliyevin təyyarəsinin vurulması üçün düzənlənən terror aktından gedir.

ISBN 978-9952-606-97-3

© İlham Tumas, 2026

## Müəllifdən

Orta məktəbdə tarixdən ən asan sualın “Sezara neçə bıçaq zərbəsi vuruldu” olduğunu indi də acı təbəssümlə xatırlayıram. Açığı, o vaxt bilmirdik ki, İmperatora 23 bıçaq zərbəsi vurulmasına baxmayaraq, məhz yaxını Brutun vurduğu sonuncu zərbə onun ölümünə səbəb olmuşdu...

Tarixdə belə sui-qəsdlər çox olub, hər hansı birini xüsusi xatırlasam, digər rəhmətliklərin, yaxud barələrində sadəcə, “günahları bağışlansın” söyləyə biləcəklərimin ruhu inciyər deyə daha heç birinin adını çəkmirəm. Bir də söhbətimiz sui-qəsdlə bağlı olsa da, öldürülənlərdən yox, Tanrının sevimli bəndəsi olduğundan bütün xain hücumlardan sağ-salamat qurtarıb xalqına xidmət missiyasını davam etdirən böyük bir şəxsiyyət haqqındadır. Mən sizə Azərbaycan tarixinin şəksiz-şübhəsiz böyük şəxsiyyətlərindən, XX əsr dünya siyasətinin nəhənglərindən olan Heydər Əlirza oğlu Əliyevə qarşı düzənlənən, dəqiq sayını belə bilmədiyimiz sui-qəsdlərdən biri haqqında geniş danışacağam. Bütün kitab boyu yalnız rəsmi sənədlərə, mətbuatın və ayrı-ayrı müəlliflərin yazdıqlarına, istintaq materiallarına, məhkəmə qərarlarına istinad edəcəyimdən, heç kimin haqqına girmədiyimə əminəm.

**Sizin İlham TUMAS**

# Heydər Əliyevi necə öldürməli?

**“Xalq da bilsin ki, mən Azərbaycanın müstəqilliyi uğrunda, Vətənimizin suverenliyi, torpaqlarımızın bütövlüyü uğrunda var qüvvəmlə çalışmışam və heç bir terrordan, heç bir hədə-qorxudan vahiməyə düşüb geri çəkilməyəcəyəm”**

**Heydər Əliyev**

Əslində, SSRİ Nazirlər Sovetinin Birinci müavini vəzifəsindən uzaqlaşdıqdan, daha doğrusu, Mixail Qorbaçovun təzyiqi ilə istefa verdikdən sonra onu bir neçə dəfə “sakit ölüm”lə aradan götürmək istəmişdilər: “Xəstəydi, ürəyi davam gətirmədi” kimi kobud “diaqnoz”la...

Heydər Əliyev 20 Yanvar hadisələrindən sonra Moskvada - Azərbaycan Nümayəndəliyindəki etiraz dolu məşhur çıxışından sonra daha orada qala bilmədi və Vətəninə qayıtdı. Di gəl, bizim nankorlar onu burada da dinc qoymadılar. Həmin dar günlərdə Vətəninə döndüyü vaxt elə aeroportadaca Heydər Əliyevin məhvi üçün qurama avtomobil qəzasının təşkili haqda çox deyilib, çox yazılıb. Ona görə, bu məsələyə toxunmuram. Ancaq Azərbaycana qədəm qoyduğu andan artıq onun həyatı yenə təhlükədəydi: mərkəzi hakimiyyət Əliyev so-

yadından belə qorxurdu. Məhz buna görə, Heydər Əliyev Naxçıvana getdi, doğulub boya-başa çatdığı yurdu da onu bağrına basdı. Onu dəfələrlə həyatdan məhrum etmək istəyiblər və bu sui-qəsd hallarının hamısı istisnasız olaraq siyasi xarakterli olub. Belə sui-qəsdlərdən biri də 1993-cü il oktyabr ayının 1-də planlaşdırılmışdı. Zamana diqqət etdinizmi? 1993-cü il oktyabr ayının 1-i! İki gün sonra – oktyabr ayının 3-də Azərbaycanda Prezident Seçkisi keçirilməliydi. Həmin ilin iyunundan Prezident Əbülfəz Elçibəyin hakimiyyətini qoyub Kələkiyə getməsindən aylar keçməsinə baxmayaraq, hələ də doğulduğu kənddəydi və ölkəni Parlamentin sədri Heydər Əliyev idarə edirdi. Ancaq belə davam eləyə bilməzdi: Azərbaycana Prezident lazımıydı. Məhz buna görə, oktyabrın 3-ü Prezident Seçkisi təyin edilmişdi. Belə bir vaxtda noyabrın 30-dan oktyabrın 1-nə keçən gecə, saat təxminən 2-3 radələrində Azərbaycan Teleradio Şirkətinin mühafizədə dayanan polisləri şirkətin həyətində silahlı-sursatlı bir nəfər yaxalayırlar. Adamın üstündə əsl cəbbəxana vardı: darağı dolu snayper tüfəngi və əlavə 10 patron, “Makarov” tapançası və əlavə 16 patron, bir ədəd əl qumbarası! O, təcili Daxili İşlər Nazirliyinə aparılır. Bu adamı dindirən Daxili İşlər Nazirliyi İstintaq idarəsinin müstəntiqi, polis mayoru Çingiz Əmirov akademik

Rafael Hüseynova deyirmiş ki, işdən evə təzəcə gəlmişdim, heç paltarımı dəyişməyə macal tapmamış, Nazirlikdən zəng vurdular ki, təcili gəl, mühüm məsələ var və həmin gecəni oyaq keçirdim. Yeri gəlmişkən, indi sizə danışacağım "Həsən Toku" olayını məhz hörmətli akademikin bir yazısına istinadla təqdim edirəm.

Tutulan şəxs Türkiyə vətəndaşı olan Həsən Toku Daxili İşlər Nazirliyində ilk dindirmədə hər şeyi etiraf edir. Etiraf edir ki, beş nəfər yoldaşı ilə birgə Ali Sovetin sədri Heydər Əliyevə qarşı sui-qəsd planlayıblar. O, şirkətin ərazisində münasib mövqe tutmalı, Heydər Əliyev Ali Sovetin binasından çıxarkən onu qətlə yetirməliymiş.

Kimdir Həsən Toku? 1969-cu ildə Ərzurumda anadan olub. Ərzurum Atatürk Universitetinin Fizika fakültəsində oxuyur. Ərzurumda "Boz qurd" cəmiyyətinin bir qolu olan "Ülkü ocaqları" təşkilatının üzvüdür. 1992-ci ildə Ərzurum Universitetinin dəvəti ilə Naxçıvan Universitetinin bir qrup tələbəsi Türkiyəyə gələndə, müəllim işləyən AXC üzvü Aydın Qasımovla tanış olur.

1993-cü il avqustun 11-də Həsən Toku növbəti dəfə Naxçıvana gəlir, Aydını tapır, Aydın da onu yeni dostlarla tanış edir. Yeyib-içmək məclislərinin birində Həsən ovçu kimi sərrast atıcı olduğunu deyir. Elə

bu yersiz özündənrazılıq Həsənin gələcək taleyini həll edir. Yeni tanışlarla birgə növbəti görüşdə onlar bildirirlər ki, əgər Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olmağa qərar versə, bu, heç də yaxşı olmayacaq. Ona görə də, nəyin bahasına olur-olsun, qarşısını almaq lazımdır. Bunun üçün də Heydər Əliyev öldürülməlidir. Məclis əhli bu işə Həsən Tokunu da qoşa bilir. Səhərisi gün onlar şəhər kənarında snayper tüfəngiylə Həsənin necə atıcı olduğunu sınaqdan keçirirlər. Dediyi kimi varmış: Toku əla atıcıdır!

Beləliklə, terror təşkilatçıları və iştirakçıları Aydın Qasımov, Əbil Babayev, Nəriman Məmmədov, Əli Əsgərov, Fazil Kərimov, Sahib Hüseynov, Bayram Əhmədov və təbii ki, Həsən Toku sui-qəsdlə bağlı hazırlığa start verirlər. Həsən Toku da daxil dəstənin bəzi üzvləri təyyarəylə silahları da gömrük və sərhəd yoxlamalarından keçirirərək Naxçıvandan Bakıya gəlirlər. Snayper üçün ən yaxşı məkan olaraq Teleradio Şirkətinin həyətindəki binaların birinin damı seçilir. İstintaqa verdiyi ifadədə Həsən Toku deyir: ***"Uzun müşahidələrdən sonra məlum oldu ki, Heydər Əliyevin işdən gedəndə çıxdığı qapı Teleşirkətin həyətindəki birmərtəbəli yarımçıq tikilinin üstündən nişangaha yaxşı gəlir. Ancaq bunun bir əmması vardı ki, bədən nişangaha rahat gəlsə***

***də, baş, sən deyən, aydın görünmür. Ona görə də qərara almışdım ki, bir yox, bir neçə atəş açım. Sui-qəsd baş tutsa, ya alınmasa, geriyə qaçmaq üçün plan hazırlamışdıq. Mən hasardan tullanıb, Əbilin 300-400 metr aralıda saxladığı maşına oturmalı idim. Mən, Fazil, Bayram, Əbil 200-300 metr gedəndən sonra silahı atmalıydıq. Fazillə Bayram maşından düşüb aralanmalı, mən isə Əbil ilə şəhəri bir müddət gəzib-dolaşandan sonra Nərimangilə getməliydik".***

Həsən Toku razılaşdıqları kimi gecə saat 1-i keçəndə divarı aşaraq Teleşirkətin ərazisinə daxil olur. Əbil maşınla çöldə - 300-400 metr aralıda gözləməliymiş. Fazilsə keşikdə dayanmalıymış ki, Həsən Toku Heydər Əliyevi vurandan sonra səsə Teleşirkətin mühafizəçiləri, ya digər polislər hərəkətə gəlsələr, onda bu adamları avtomatdan atəşə tutsun.

Ancaq terror baş tutmur. Həsən Toku cinayəti başa çatdıra bilməməsinin səbəbini belə izah edir ki, hasarı aşıb Teleşirkətin həyətinə daxil olandan sonra üstündən atəş açacağı binaya yaxınlaşıb, sonra küçəyə baxaraq onu gözləyəcək maşının danışılan yerdə dayanıb-dayanmadığını yoxlayıb. Görüb ki, maşın yoxdur, o biri yoldaşı da dayanmalı olduğu yerdə gözə dəymir. Baxır ki, 3 polis işçisi ona tərəf

gəlir. Özü də etiraf edir ki, o qaranlıqda, onlar işıqda idilər, çətinlik çəkmədən onları vura bilərdi. Ancaq...

***"Ancaq düşündüm ki, mənimlə gələnlər məni aldadıb, atıb gediblər, tək qalmışam. Lap tutalım, bu polisləri vurdum, hara qaçacağam, necə qaçacağam? Ona görə gözlədim. Polislər məni yalnız lap yanıma çatanda gördülər. Əlimdəki tüfəngi görüb çox heyrətləndilər. Və özüm onlara təslim oldum".***

Maraqlıdır ki, sonradan qəsddə iştirak edənlərin hərəsinin ayrı-ayrılıqda ifadələri alınanda məlum olur ki, əslində onların heç biri digərini satmayıb. Sadəcə, səhvən heç biri əvvəlcədən danışılmış yerdə durmaylblar. Bu da Allahın işidir!

Cinayət işinin təhlükəlilik dərəcəsini və dövləti məna əhəmiyyətini nəzərə alaraq oktyabrın 3-də Respublika Baş Prokurorluğunun qərarı ilə ümumi nəzarət şöbəsinin prokuroru, III dərəcəli ədliyyə müşaviri Şükür Rzayevin rəhbərliyi ilə 16 nəfərdən ibarət istintaq-əməliyyat qrupu yaradılır.

Həsən Toku öz xəttiylə yazdığı izahatında Naxçıvanda olduğu müddətdə cəbhəçilər tərəfindən ona mütəmadi olaraq Heydər Əliyevlə bağlı söhbətlər edildiyini və nəhayətdə onda mənfi təəssüratın yarandığını bildirir. Həsən Toku həmçinin, Naxçıvan-

da olduğu dövrdə Aydının onu Kələkiyə apararaq 6 gün orada qonaq saxladığını, Əbülfəz Elçibəylə də görüşdürdüyünü xəbər verir. O, Kələkidə olarkən Elçibəyin yanında Tofiq Qasımovla görüşdüyünü, Əbülfəz bəyin ətrafına yığılan silahdaşları ilə adətən 1 illik hakimiyyətlərini, buraxılan səhvləri müzakirə etdiklərini, bu söhbətlərdə tez-tez Rəhim Qazıyevin, İsgəndər Həmidovun, Etibar Məmmədovun, Surət Hüseynovun, Pənah Hüseynovun və Heydər Əliyevin adlarının çəkildiyini yada salır.

İzahatdan oxuyuruq: ***"Elçibəyin sözlərinə görə, Rəhim Qazıyev müdafiə naziri olduğu zaman torpaqları pulla satıb, ruslarla birlikdə Surət Hüseynovun üsyanının planlaşdırılmasında "əməyi olub". İsgəndər Həmidov daxili işlər naziri olarkən öz sərt hərəkətləri ilə dövlət səviyyəsində terrorçuluqla milliyyətçilik ideyasını və Xalq Cəbhəsini millətin gözündən salıb. Etibar Məmmədov Cəbhədən ayrılıb ayrı partiya qurduğu üçün Cəbhəni zəiflətmiş və prezident səlahiyyətlərinin Heydər Əliyevə verilməsinin tərəfdarı olaraq Cəbhəyə dönüklük etmişdir. Surət Hüseynov dövlətə qarşı üsyan edərək Azərbaycan dövlətçiliyini yaralayıb, baş nazir olduğu zaman qanunsuz işlər görərək rüşvət almış, Cəbhəni və iqtidarı gözdən salmışdır. Elçibəyin***